**AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI**

**Q Ə R A R**

**№ 1**

**Bakı şəhəri** **15 mart 2023-cü il**

**“Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16.1.11-ci maddəsinə uyğun olaraq, sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident kredit təşkilatlarında və ya bank əməliyyatı aparan şəxslərdə açılmış hesablar barədə məlumat forması”nın, “Azərbaycan Respublikası Vergi Məcəlləsinin 35.1-ci maddəsinə uyğun olaraq, banklar, kredit təşkilatları və poçt rabitəsinin milli operatoru tərəfindən vergi ödəyicilərinə açılmış hesablar (qeyri-rezident üçün sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan açılmış hesablar istisna olmaqla) barədə məlumat forması”nın və “Azərbaycan Respublikası Vergi Məcəlləsinin 35.5-ci maddəsinə uyğun olaraq, banklar, kredit təşkilatları və poçt rabitəsinin milli operatoru tərəfindən köçürülən vergi ödəyicilərinə məxsus hesablar barədə məlumat forması”nın təsdiq edilməsi haqqında**

“Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” 2000-ci il 30 avqust tarixli 393 nömrəli və “Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2020-ci il 21 mart tarixli 969 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2022-ci il tarixli 1946 nömrəli Fərmanının 3.1.1-ci, 3.1.2-ci və 3.1.3-cü yarımbəndlərinin icrasının təmin edilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”nin 5.11.2-ci yarımbəndini rəhbər tutaraq Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyası

**QƏRARA ALIR**

**1.** “Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16.1.11-ci maddəsinə uyğun olaraq, sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident kredit təşkilatlarında və ya bank əməliyyatı aparan şəxslərdə açılmış hesablar barədə məlumat forması” təsdiq edilsin (əlavə olunur).

**2.** “Azərbaycan Respublikası Vergi Məcəlləsinin 35.1-ci maddəsinə uyğun olaraq, banklar, kredit təşkilatları və poçt rabitəsinin milli operatoru tərəfindən vergi ödəyicilərinə

açılmış hesablar (qeyri-rezident üçün sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan açılmış hesablar istisna olmaqla) barədə məlumat forması" təsdiq edilsin (əlavə olunur).

**3.** "Azərbaycan Respublikası Vergi Məcəlləsinin 35.5-ci maddəsinə uyğun olaraq, banklar, kredit təşkilatları və poçt rabitəsinin milli operatoru tərəfindən köçürülən vergi ödəyicilərinə məxsus hesablar barədə məlumat forması" təsdiq edilsin (əlavə olunur).

**4.** Hüquq şöbəsinin müdiri Tural İsgəndərova tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədilə 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsi üçün zəruri tədbirlər görülməsini təmin etsin.

**5.** Kollegiyanın məsul katibi, Daxili nəzarət şöbəsinin müdir müavini Elnur Əliyevə tapşırılsın ki, bu Qərarın surətinin göndərilmə siyahısına uyğun çatdırılmasını təmin etsin.

**6.** Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**7.** Bu Qərarın 1-ci, 2-ci və 3-cü hissələri 2023-cü il oktyabrın 1-dən qüvvəyə minir.

**Əsas:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiya iclasının protokolu.

**Sədr,**
**İqtisadiyyat naziri** **Mikayıl Cabbarov**

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 15 mart 2023-cü il tarixli 1 №-li qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16.1.11-ci maddəsinə uyğun olaraq, sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident kredit təşkilatlarında və ya bank əməliyyatı aparan şəxslərdə açılmış hesablar barədə**

# MƏLUMAT FORMASI

## 1.Məlumat formasının təqdim edildiyi vergi orqanı

| | | |
|---|---|---|
| 1.1. | Məlumat formasının təqdim edildiyi vergi orqanının adı | |

## 2. Vergi ödəyicisi haqqında məlumatlar

| | | |
|---|---|---|
| 2.1. | Vergi ödəyicisinin adı | |
| 2.2. | Vergi ödəyicisinin VÖEN-i | |

## 3. Hesab haqqında məlumatlar

| | | |
|---|---|---|
| 3.1. | Qeyri-rezident kredit təşkilatının və ya bank əməliyyatı aparan şəxsin adı | |
| 3.2. | Qeyri-rezident kredit təşkilatının və ya bank əməliyyatı aparan şəxsin yerləşdiyi ölkənin adı | |
| 3.3. | Valyutanın adı | |
| 3.4. | Valyutanın kodu | |
| 3.5. | Hesabın növü | |
| 3.6. | Hesabın nömrəsi | |
| 3.7. | Hesabın açıldığı tarix | _ _ . _ _ . 2 0 _ _ |

## 4. Məlumat formasını tərtib edən səlahiyyətli şəxs haqqında məlumatlar
(bu hissə məlumat forması kağız daşıyıcıda təqdim edildikdə doldurulur)

| | | |
|---|---|---|
| 4.1. | Soyadı | |
| 4.2. | Adı | |

| | | |
|---|---|---|
| 4.3. | Atasının adı | |
| 4.4. | İmzası | _______________________________ |
| 4.5. | Məlumat formasının təqdim edilmə tarixi | _ _ _ _ 2 0 _ _ |
| | | 4.6. M.Y. |

**5. Məlumat formasında göstərilənlərin düzgünlüyünü yoxlayan vergi orqanının vəzifəli şəxsi haqqında məlumatlar (bu hissə məlumat forması kağız daşıyıcıda təqdim edildikdə doldurulur)**

| | | |
|---|---|---|
| 5.1. | Soyadı | |
| 5.2. | Adı | |
| 5.3. | Atasının adı | |
| 5.4. | İmzası | _______________________________ |
| 5.5. | Tarix | _ _ _ _ 2 0 _ _ |

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 15 mart 2023-cü il tarixli 1 №-li qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikası Vergi Məcəlləsinin 35.1-ci maddəsinə uyğun olaraq, banklar, kredit təşkilatları və poçt rabitəsinin milli operatoru tərəfindən vergi ödəyicilərinə açılmış hesablar (qeyri-rezident üçün sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan açılmış hesablar istisna olmaqla) barədə**

**MƏLUMAT FORMASI**

## 1. Hesabı açan bank əməliyyatı aparan şəxs haqqında məlumatlar

1.1. Bank əməliyyatı aparan şəxsin adı

1.2. Bank əməliyyatı aparan şəxsin VÖEN-i

1.3. Bank əməliyyatı aparan şəxsin filialının və ya struktur bölməsinin vergi orqanındakı uçot kodu –

1.4. Bank əməliyyatı aparan şəxsin bank kodu

## 2. Vergi ödəyicisi haqqında məlumatlar

2.1. Vergi ödəyicisinin adı

2.2. Vergi ödəyicisinin VÖEN-i

## 3. Hesab haqqında məlumatlar

3.1. Valyutanın adı

3.2. Valyutanın kodu

3.3. Hesabın növü

3.4. Hesabın nömrəsi

3.5. Hesabın açıldığı tarix 20

Qeyd: Bu məlumat formasında bank əməliyyatı aparan şəxs dedikdə, banklar, kredit təşkilatları və poçt rabitəsinin milli operatoru nəzərdə tutulur.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 15 mart 2023-cü il tarixli 1 №-li qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikası Vergi Məcəlləsinin 35.5-ci maddəsinə uyğun olaraq, banklar, kredit təşkilatları və poçt rabitəsinin milli operatoru tərəfindən köçürülən vergi ödəyicilərinə məxsus hesablar barədə**

**MƏLUMAT FORMASI**

Bank əməliyyatı aparan şəxsin adı: ________________________________________________

Bank əməliyyatı aparan şəxsin VÖEN-i: ______________________

| Sıra №-si | Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin VÖEN-i | Köçürülən hesab barədə məlumatlar | | | | | | | | | Hesabın köçürüldüyü bank əməliyyatı aparan şəxs barədə məlumatlar | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Bank əməliyyatı aparan şəxsin (filialının və ya struktur bölməsinin) adı | Bank əməliyyatı aparan şəxsin VÖEN-i | Bank əməliyyatı aparan şəxsin filialının və ya struktur bölməsinin vergi orqanındakı uçot kodu | Bank əməliyyatı aparan şəxsin (filialının və ya struktur bölməsinin) bank kodu | Hesabın nömrəsi | Hesabın açılma tarixi | Valyutanın adı | Hesabın növü | Şəhadətnamə-dublikatın və ya bildirişin nömrəsi | Bank əməliyyatı aparan şəxsin (filialının və ya struktur bölməsinin) adı | Bank əməliyyatı aparan şəxsin VÖEN-i | Bank əməliyyatı aparan şəxsin filialının və ya struktur bölməsinin vergi orqanındakı uçot kodu | Bank əməliyyatı aparan şəxsin (filialının və ya struktur bölməsinin) bank kodu |
| 1 | | | | | | | | | | | | | | | |
| 2 | | | | | | | | | | | | | | | |
| 3 | | | | | | | | | | | | | | | |
| 4 | | | | | | | | | | | | | | | |

Qeyd 1: Bu məlumat formasının "Şəhadətnamə-dublikatın və ya bildirişin nömrəsi" sütununda 2023-cü ilin 1 oktyabr tarixinədək verilmiş şəhadətnamə-dublikatın və ya 2023-cü ilin 1 oktyabr tarixindən sonra verilmiş bildirişin nömrəsi qeyd edilməlidir.
Qeyd 2: Bu məlumat formasında bank əməliyyatı aparan şəxs dedikdə, banklar, kredit təşkilatları və poçt rabitəsinin milli operatoru nəzərdə tutulur.